**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 9 iyun tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 582-IVQDnömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 mart tarixli 849 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 9 iyun tarixli 88 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 489, № 9, maddə 756; 2010, № 8, maddə 769) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "d" yarımbəndi ləğv edilsin;

2. sonuncu abzasdan "onların uzadılacaq müddətlə birlikdə ölkədə müvəqqəti olma müddəti 30 gündən artıq olarsa," sözləri çıxarılsın.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 2 avqust 2013-cü il
№ 202